# “Dost Aqropark”:

# həmrəylik nümunəsi, bərəkət tarlası

**Laçın Beynəlxalq Hava Limanının açılış mərasimindən sonra Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğan türk və azərbaycanlı sərmayədarlar tərəfindən Şərqi Zəngəzur bölgəsində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksi "Dost Aqropark"da istehsal olunan məhsullara baxıblar. Liderlərə bolluq-bərəkət rəmzi hesab olunan sünbül hədiyyə olunub.**

***Azərbaycan və Türkiyə liderlərinə bolluq rəmzi hesab olunan sünbül hədiyyə olundu***




Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. "Ağıllı kənd təsərrüfatı" texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq, ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq. Kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.

**(davamı 5-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan 2022-ci ildə Zəngilan rayonunda "Dost Aqropark" "ağıllı kənd təsərrüfatı" kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər.

"Bu gün artıq burada görülən işlərlə tanış olarkən bir daha gördük ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və hər bir sahədə gözəl nəticələr verir". Azərbaycan Prezidenti İlham Əliyev bu fikirləri 2022-ci ildə "Dost Aqropark" "ağıllı kənd təsərrüfatı" kompleksinin birinci mərhələsinin açılışında bildirib. Prezident Rəcəb Tayyib Ərdoğan deyib ki, İlham qardaşım bu sahədə çox önəmli bir addım atır, bunu reallaşdırır. Bura artıq bir taxıl anbarı, heyvandarlıq baxımından bir bərəkət tarlası və bir çox ölkənin də, İnşallah, qapısını döyəcəyi bölgəyə çevriləcək. Açılış mərasimində bildirilib ki, layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalına başlanılıb. İstehsal olunan məhsullar "Made in Qarabağ" brendi ilə satışa çıxarılıb. Zəngəzur dəhlizi açılandan sonra "Dost Aqropark" "ağıllı kənd təsərrüfatı" kompleksi logistika baxımından daha önəmli olacaq. Belə ki, xaricdən bura arpa, buğda gətirmək daha asan, həm də aqroparkın istehsal etdiyi məhsulları ixrac etmək daha rahat olacaq. Qardaş ölkə liderləri bölgəyə gətirilən, otlaqlarda bəslənərək yetişdirilən və kəsilən heyvanlardan alınan ət məhsullarının paketlərinin üzərinə "Made in Qarabağ" etiketlərinin ilk nümunələrini vurublar.

"Dost Aqropark"ın ikinci və üçüncü mərhələləri üzrə işlər də davam etdirilir. Layihənin bütün mərhələlərinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. İstehsal olunan məhsulların "Made in Qarabağ" brendi ilə dünya bazarına çıxarılması üçün "Aqro Market" də qurulacaq. "Ağıllı kənd təsərrüfatı" texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmləri tətbiq olunacağı "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Kompleksdə "ağıllı kənd təsərrüfatı" texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulub. Aqroparkda hazırda 120 nəfər işlə təmin olunub. Yaxın gələcəkdə daha bir neçə belə müəssisənin yaradılması nəzərdə tutulur. İşğaldan azad edilən rayonlarda iri aqroparkların qurulması ilə yanaşı, fermer təsərrüfatlarının təşkili də gündəmdədir. Bu təsərrüfatlar, əsasən, Kəlbəcər, Laçın və Qubadlıda yaradılacaq.

Vətən müharibəsində şanlı qələbə qazanılmasından 4 il yarım ötməsinə baxmayaraq, Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərimizin bərpası istiqamətində yüksək nəticələr əldə edib. Belə ki, həmin ərazilərdə möhtəşəm layihələrin təməli atılıb və onların bir hissəsinin icrası artıq başa çatıb. Dövlətimiz işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışı ləyaqətli şəkildə təmin etməyi hədəfləyib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində bir sıra layihələrin təməlinin qoyulmasında, açılışında Azərbaycan Prezidenti İlham Əliyevlə birgə iştirak etməsi dövlətlərimizin qardaşlığının əməli ifadəsidir. Qarabağ və Şərqi Zəngəzurda "Bir millət, iki dövlət"in bağları, meşələri salınır. Dövlət başçıları Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Zəngilan Beynəlxalq Hava Limanı işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra istifadəyə verilən beynəlxalq statuslu ikinci aeroportdur. Üçüncü hava limanı isə Laçın rayonunun ərazisində açılıb. Türkiyə şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında və yenidən qurulmasında fəal iştirak edirlər. Bu layihələr qardaşlığımızın möhkəmlənməsi, qeyri-neft sektorunun inkişafı, rəqabətqabiliyyətli məhsul istehsalı, rifahın yüksəlməsi və yeni iş yerlərinin açılması deməkdir. Eyni zamanda, Azərbaycanla Türkiyənin birgə təşəbbüsü və iştirakı ilə həyata keçirilən, regional inkişafa və təhlükəsizliyə töhfə verən meqalayihələr qlobal əhəmiyyətə malikdir. Enerji sahəsində səmərəli əməkdaşlıq, imzalanan sənədlər, uğurla reallaşdırılan birgə təşəbbüslər və layihələr beynəlxalq arenada ölkələrimizin mövqeyini daha da gücləndirməklə yanaşı, regional enerji təchizatında mühüm rol oynayır.

Prezident İlham Əliyev deyib ki, Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsi dəyişib. Ölkələrimiz enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malik olub və bu gün bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində geniş layihələrə start verilib. Bununla yanaşı, Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır. Multimodal yük marşrutunun inkişafı yolu ilə Pakistanın da bu təşəbbüsdə yaxından iştirakının əməkdaşlığımıza daha da təkan verəcəyinə əminik. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi, Trans-Anadolu Qaz Kəməri (TANAP) layihələri Avropa və Asiya arasında enerji infrastrukturunun formalaşdırılmasında böyük əhəmiyyətə malikdir. Qardaş ölkə Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil və Horadiz-Mincivan-Ağbənd dəmir yollarının salınmasında, Azərbaycan üçün strateji önəm daşıyan Füzuli-Şuşa avtomobil yolunun inşasında, eyni zamanda, Göygöl bölgəsindən Kəlbəcərə magistralın çəkilişində, habelə digər infrastruktur layihələrinin icrasında, tarixi abidələrimizin bərpasında səmərəli fəaliyyət göstərir. Azərbaycan isə Türkiyə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyub.

Dövlət başçısı əmin olduğunu bildirib ki, azad edilmiş torpaqlarda aqroparkların sayı çox olacaq. Cəbrayıl və Ağdam rayonlarında sənaye zonaları yaradılır. Hesab edirəm ki, Zəngilan rayonunda məşğulluq və iqtisadiyyatın əsas hissələrindən biri yenə də kənd təsərrüfatı olmalıdır. Çünki təbii iqlim çox əlverişlidir və yenə də "DOST Aqropark"ın timsalında biz azad edilmiş bütün torpaqlarda gələcəkdə yaradılacaq mənzərəni görməliyik.

# "Dost Aqropark": həmrəylik nümunəsi, bərəkət tarlası




## Azərbaycan və Türkiyə liderlərinə bolluq rəmzi hesab olunan sünbül hədiyyə olundu




Ölkəmizdə əhalinin etibarlı ərzaq məhsulları ilə təminatı daim dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Ərzaq təhlükəsizliyi bütün insanların yaşamaq üçün zəruri olan məhsullara iqtisadi çıxışının təmin olunması, sağlamlığın və fəal həyat tərzinin qorunub saxlanılmasıdır ki, bu da cəmiyyətin inkişafının əsasıdır. Eyni zamanda əhalinin etibarlı ərzaq təminatı həm də hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərti, dövlətin iqtisadi təhlükəsizliyinin tərkib hissəsi olmaqla aqrar siyasətin əsas hədəfidir.

Müasir çağırışlar Azərbaycanda da aqrar sektorun yeni yanaşmalara inkişaf etdirilməsinin aktuallığını artırıb. Geniş potensiala və zəngin ənənələrə malik kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması, ölkənin aqrar potensialının təbliği istiqamətində mühüm uğurlar əldə edilib. Aqrar islahatların müasir mərhələsi ilə bağlı Prezident İlham Əliyev tərəfindən qəbul olunmuş qərarlar, ölkədə bu sahənin institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlərin icrası kənd təsərrüfatının keyfiyyətcə yeni inkişaf mərhələsinə keçməsinə təkan verib. Kənd təsərrüfatı məhsulları istehsalının səmərəsini artırmaq, bu məhsulların istehsalçılarına dövlət tərəfindən maliyyə yardımının göstərilməsini təmin etmək məqsədilə verdiyi qərarlar bu sektorun ildən-ilə böyüməsini, istehsal göstəricilərinin davamlı olaraq yüksəldilməsini stimullaşdırır, mütərəqqi texnoloji yeniliklərin, innovativ üsulların tətbiqi imkanlarını genişləndirir. Bu isə öz növbəsində ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına, idxaldan asılılığın azaldılmasına, eləcə də bolluğa və rifahın yaxşılaşdırılmasına, həmçinin aqrar sahənin ixrac potensialının artırılmasına gətirib çıxarır. Subsidiyaların verilməsi ilə bərabər, fermerlər üçün güzəştli kredit imkanları da yaradılıb.

İşğal nəticəsində insanların yaşayışı üçün tamamilə yararsız hala salınmış bu yerlərin indi bərəkətli torpaqlara çevrildiyini xüsusi qeyd etməliyik. Bütün bunlar deməyə əsas verir ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və gözəl nəticələr verir.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2025.- 31 may.- S.1;5.